**“AZƏRXALÇA” ASC**

**31.12.2021-ci il tarixə**

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına**

**Uyğun Maliyyə Hesabatları və**

**Müstəqil auditorun hesabatı**

MÜNDƏRİCAT


| | |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat | 3 |
| Müstəqil auditorun hesabatı | 4-5 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Mənfəət və zərər haqqında hesabat | 7 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 8 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 9 |
| Maliyyə hesabatlarına şərhlər və qeydlər | 10-36 |

**31 DEKABR 2021-ci İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT**

Rəhbərlik "AZƏRXALÇA" ASC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə başa çatan il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri düzgün əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazılanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə;

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Cəmiyyətin daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə,onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərini aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə başa çatan il üzrə maliyyə hesabatları 18 avqust 2022-ci il tarixində rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**Cəmiyyət tərəfindən:**

**Məmmədov Emin**
***İdarə Heyətinin Sədri***

**Eyyubov Zaur**
***Baş mühasib***

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"AZƏRXALÇA" ASC-nin Səhmdarına və Rəhbərliyinə:

### Rəy

Biz "AZƏRXALÇA" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatın və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

### Rəyin bildirilməsi üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyət fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

18 avqust 2022-ci il

Bakı, Azərbaycan Respublikası

"Finexpert" MMC-nin

Direktor-Auditoru

Həcət Cəbrayılov

**"AZƏRXALÇA" ASC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzun müddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 10 | 17 243 787 | 17 673 435 |
| Tikilməkdə olan Binalar | 10 | 60 894 515 | 60 480 125 |
| Qeyri-maddi aktivlər | 11 | 6 552 | 7331 |
| **Cəmi Uzun müddətli aktivlər** | | **78 144 854** | **78 160 891** |
| **Cari Aktivlər** | | | |
| Mal və material ehtiyatları | 8 | 8 209 473 | 6 909 948 |
| Müddətli Əmanət | 7 | 14 000 000 | - |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 6 | 1 765 626 | 20 530 599 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | | 2 607 | 1 134 107 |
| Digər cari aktivlər | 9 | 412 192 | 263 635 |
| Qabaqcadan ödəmələr | | 261 144 | 4 457 |
| **Cəmi cari aktivlər** | | **24 651 042** | **28 842 746** |
| **CƏMİ AKTİVLƏR** | | **102 795 896** | **107 003 637** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 13 | 15 000 000 | 15 000 000 |
| Əlavə kapital qoyuluşu | | 104 449 342 | 104 802 112 |
| Yığılmış zərər | | (17 038 710) | (13 839 185) |
| **CƏMİ KAPİTAL** | | **102 410 632** | **105 962 927** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər və DSMF öhdəlikləri | 12 | 99 815 | 986 224 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | | 285 449 | 54 486 |
| **Cəmi cari öhdəliklər** | | **385 264** | **1 040 710** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **385 264** | **1 040 710** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **102 795 896** | **107 003 637** |

18 avqust 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

**Cəmiyyət tərəfindən:**

**Məmmədov Emin**
***İdarə Heyətinin Sədri***

**Eyyubov Zaur**
***Baş mühasib***

**"AZƏRXALÇA" ASC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci tarixində bitən il üzrə |
|---|---|---|---|
| Satışdan gələn gəlir | 14 | 1 606 810 | 5 142 194 |
| Satışın maya dəyəri | 14 | (1 214 639) | (4 590 225) |
| **Ümumi gəlir** | | **392 171** | **551 969** |
| Sair gəlirlər | | 411 944 | 1 145 609 |
| Satış və paylama xərcləri | | | |
| İnzibati və əməliyyat xərcləri | 15 | (4 185 351) | (5 089 060) |
| **Əməliyyat zərəri** | | **(3 773 407)** | **(3 391 484)** |
| Xarici valyuta əməliyyatlarından xalis gəlir | | - | 108 796 |
| Faiz gəliri | | 181 711 | |
| **Vergidən əvvəlki zərər** | | **(3 199 525)** | **(3 282 687)** |
| Mənfəət vergisi xərci | | | |
| **İl üzrə zərər** | | **(3 199 525)** | **(3 282 687)** |
| **Digər məcmu gəlirlər** | | | |
| **İl üzrə cəmi məcmu zərər** | | **(3 199 525)** | **(3 282 686)** |

18 avqust 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

**Cəmiyyət tərəfindən:**

**Məmmədov Emin**
*İdarə Heyətinin Sədri*

**Eyyubov Zaur**
***Baş mühasib***

**"AZƏRXALÇA" ASC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| *Azərbaycan Manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Əlavə kapital qoyuluşu | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | | **15 000 000** | **67 979 513** | **(4 835 040)** | **78 144 473** |
| Əlavə kapital qoyuluşu | | - | 34 102 778 | - | **34 102 778** |
| Cəmi məcmu zərər | | - | - | (5 341 692) | **(5 341 692)** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **15 000 000** | **102 082 291** | **(10 176 732)** | **106 905 559** |
| Əlavə kapital qoyuluşu | | - | 2 719 821 | - | 2 719 821 |
| Cəmi məcmu zərər | | - | - | (3 662 452) | (3 662 452) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **15,000,000** | **104 802 112** | **(13 839 184)** | **105 962 928** |
| Əlavə kapital qoyuluşu | | - | (352 770) | - | (352 770) |
| Cəmi məcmu zərər | | - | - | (3 199 525) | (3 199 525) |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | | **15,000,000** | **104 449 342** | **(17 038 710)** | **102 410 632** |

18 avqust 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

**Cəmiyyət tərəfindən:**

**Məmmədov Emin**
***İdarə Heyətinin Sədri***

**Eyyubov Zaur**
***Baş mühasib***

**"AZƏRXALÇA" ASC**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2021-ci il tarixində bitən il üzrə | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Vergidən əvvəlki zərər | | (3 199 525) | (3 282 686) |
| Düzəlişlər: | | | |
| Faiz gəliri | | - | - |
| Əmlak tikili və avadanlıqlar və qeyri-maddi aktivlər üzrə köhnəlmə və amortizasiya xərcləri | 10,11 | 728 017 | 685 377 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən zərər | | - | 15 418 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **(2 471 508)** | **(2 581 891)** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Qabaqcadan ödəmələr üzrə xalis (artım)/azalma | | (256 687) | 20 285 |
| Mal və material ehtiyatları üzrə xalis (artım) | 8 | (1 299 524) | 7 262 706 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | | 1 131 500 | (124 623) |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər və DSMF öhdəliklərində artım | 12 | (949 645) | 885 408 |
| Ticarət və digər kreditor borcları üzrə xalis artım | | 408 628 | (580 540) |
| Digər cari aktivlərdə artım | 9 | (262 987) | (16 383) |
| **Vergidən əvvəl əməliyyat fəaliyyətindən xaric olan xalis pul vəsaitləri** | | **(3 700 223)** | **4 864 961** |
| Ödənilmiş mənfəət vergisi | | | - |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(3 700 223)** | **4 864 961** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müddətli əmanətlərin yerləşdirilməsi | 7 | (14 000 000) | - |
| Əldə edilmiş faiz gəliri | | - | - |
| Əmlak, tikili və avadanlıqların alınması | 10 | (711 980) | (8 178 117) |
| Tikilməkdə olan Binalar | | - | 196 860 |
| Qeyri-maddi aktivlərin alınması | | | |
| **İnvestisiya fəaliyyətindən xaric olan xalis pul vəsaitləri** | | **( 14 711 980)** | **(7 981 257)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əlavə kapital qoyuluşu | | (352 770) | 2 719 821 |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(352 770)** | **2 719 821** |
| *Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri* | | - | 19 738 |
| **Pul və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/(azalma)** | | (18 764 973) | (396 475) |
| **İlin əvvəlinə pul və pul vəsaitlərinin ekvivalentləri** | 6 | **20 530 599** | **20 907 336** |
| **İlin sonuna pul və pul vəsaitlərinin ekvivalentləri** | 6 | **1 765 626** | **20 530 599** |

18 avqust 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

**Cəmiyyət tərəfindən:**

**Məmmədov Emin**
***İdarə Heyətinin Sədri***

**Eyyubov Zaur**
***Baş mühasib***

## 1. Cəmiyyət və Onun Əsas Fəaliyyəti

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikası Prezidentinin 2032 saylı sərəncamının 6.1 bəndinə müvafiq olaraq 5 may 2016-cı il tarixində təsis edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasının Bakı şəhərində yerləşir. Cəmiyyət açıq səhmdar cəmiyyətidir və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmişdir. Cəmiyyətin nizamnaməsi və strukturu 4 oktyabr 2016-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 375 saylı qərarı ilə təsdiq edilmişdir.

Cəmiyyətin əsas fəaliyyətinə xalça və xalça məmulatlarının istehsalı və satışı, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, habelə bu sahənin inkişafı ilə bağlı digər işlər daxildir.

Cəmiyyətin nizamnamə kapitalı Azərbaycan Respublikası Hökumətinə ("Hökumət") məxsus və hər birinin nominal dəyəri 1 AZN olan 15 milyon səhmdən ibarətdir. Cəmiyyətin hüquqi ünvanı: AZ5002, Sumqayıt şəhəri, Kimyaçılar küçəsi, ev 1

31 dekabr 2021-ci il tarixinə işçilərin sayı 1256 nəfər (31 dekabr 2020-ci il tarixinə 1606 nəfər) olmuşdur.

## 2. Əməliyyat Mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Neft qiymətlərində azalma və milli valyutanın əsas xarici valyutalara qarşı devalvasiyasının mənfi nəticəsi olaraq 2016-cı ildə ölkədə baş vermiş kəskin iqtisadi böhrandan sonra Azərbaycan hökuməti tərəfindən uzunmüddətli iqtisadi sabitliyi və dayanıqlığı təmin etmək məqsədilə islahatlar sürətləndirilmişdir Institusional dəyişiklikləri əhatə edən iqtisadi islahatlara əsasən inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı səviyyədə olmuş və ölkənin xarici sektorunda müsbət tendensiyalar müşahidə olunmuşdur. 12 mart 2020-ci il tarixində Dünya Səhiyyə Təşkilatı COVID-19 epidemiyasını qlobal pandemiya elan etmişdir. Azərbaycan hökuməti tərəfindən COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması və mənfi təsirlərinin azaldılması məqsədilə hərəkətin məhdudlaşdırılması ilə bağlı tədbirlər, o cümlədən karantin, özünütəcrid və ticarət fəaliyyətinin məhdudlaşdırılması, o cümlədən müəssisələrin bağlanması kimi bir sıra tədbirlər görülmüşdür. Yuxarıda qeyd olunan tədbirlər qismən yumşaldılmış və 2020-ci ilin dekabr ayında yenidən sərtləşdirilmişdir. Bu tədbirlər Azərbaycanda iqtisadi fəaliyyəti əhəmiyyətli dərəcədə məhdudlaşdırmış və biznes subyektlərinə, bazar iştirakçılarına, Şirkətin müştərilərinə, habelə yerli və qlobal iqtisadiyyata mənfi təsir göstərmiş və gələcəkdə qeyri-müəyyən müddət təsir göstərməkdə davam edə bilər.

COVID-19 pandemiyası ilə yanaşı, 27 sentyabr 2020-ci il tarixində Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ və Dağlıq Qarabağ ətrafındakı ərazilərdə Azərbaycan və Ermənistan arasında yenidən qarşıdurmalar başlamışdır. Azərbaycan Respublikası ərazisində hərbi vəziyyət elan edilərək komendant saatı tətbiq edilmiş və sonrakı altı həftə ərzində Ermənistan tərəfindən işğal edilmiş ərazilərin bir hissəsi işğaldan azad edilmişdir 9 noyabr 2020-ci il tarixində imzalanmış atəşkəs razılaşmasına əsasən 10 noyabr 2020-ci il tarixindən etibarən Dağlıq Qarabağ və ətraf ərazilərdəki bütün hərbi əməliyyatlar dayandırılmışdır.

Siyasi və iqtisadı vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər.

Mövcud iqtisadi vəziyyətin gələcək təsirlərini və yuxarıda qeyd olunan tədbirləri qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadı mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

Maliyyə-strateji və cari qərarların hərtərəfli əsaslandırılması, biznes planlaşdırması zamanı risklərin azaldılması, etibarlı tərəfdaşların seçilməsi və işgüzar mühitin yaradılması Cəmiyyətin dayanıqlı

inkişafının göstəriciləridir.

Cəmiyyətin 2021-ci ildə satış həcmi 1606 810 manat təşkil edərək yüksək artım göstərmişdir. 2020-ci il üzrə satış həcmi 5 153 524 manat olmuş, lakin bunun 5 084 745 manat hissəsini COVID 19 pandemiyası dövründə dövlət dəstəyi çərçivəsində AR Mədəniyyət Nazirliyinə satılmış xalçalar təşkil etmiş ki, faktiki olaraq Cəmiyyət öz imkanları hesabına 2020-ci il ərzində cəmi 68789 manat dəyərində xalça satmışdır.

Cəmiyyətin cari dayanıqlı inkişafına və maliyyə sabitliyinə aşağıda qeyd olunan pozitiv amillər təsir göstərmişdir:

- Korporativ idarəetmə sisteminin tətbiq edilməsi;
- maliyyə-təsərrüfat əməliyyatlarının, maliyyə resurslarının istifadəsinin səmərəliliyinin artması;
- Geniş tələbata malik yeni müasir dizaynlı yun və ipək xalçaların istehsal edilməsinə və satışına başlanması;
- xarici ölkələrə(Almaniya, Bəhreyn, BƏƏ, İsrail və sair) xalçaların satışının həyata keçirilməsi;
- Cəmiyyətin inkişafına dair yol xəritəsinin hazırlanması və mərhələlərlə həyata keçirilməsi.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri

### Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri

*Uyğunluq prinsipi*

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş 31 dekabr 2021-ci il tarixinə qüvvədə olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmışdır.

*Təqdimatın əsasları*

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

*Funksional və hesabat valyutası*

Cəmiyyətin funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

31 dekabr 2021-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları =1.7000 AZN, 1 Avro = 1.9265AZN (31 dekabr 2020: 1 ABŞ dolları =1.7000 AZN, 1 Avro = 2.0890 AZN).

*Fasiləsizlik prinsipi*

Maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə

hesabatları standartları, Rəhbərlik tərəfindən Cəmiyyətin davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərinin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

***Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur:***

Ədalətli dəyər - qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir.
Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Cəmiyyət mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Cəmiyyət müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv və öhdəliyin xarakteristikalarına uyğundur.
Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər və öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir;
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla ( qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur;
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Cəmiyyət tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları***

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Cəmiyyət qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər.

Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə Təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar

məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər-hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər-hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

***Maliyyə aktivləri***

***Maliyyə alətlərinin ilkin tanınması***

Ticarət olunan qiymətli kağızlar, törəmə alətlər və digər ədalətli dəyəri mənfəət və ya zərərdə tanınan maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə ölçülür. Digər maliyyə alətləri, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər

əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

*Maliyyə alətlərinin təsnifatı*

İlkin tanımada maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər hesabına ədalətli dəyərdə ("MZHƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZHƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZHƏD kimi müəyyən edilmədikdə, DMGƏD-də ölçülür:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır;

- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivlər MZHƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZHƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Cəmiyyətin rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerləri necə mükafatlandırılır – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyətin məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

***Maliyyə alətlərinin yenidən təsnifi***

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

***Maliyyə alətlərinin dəyərsizləşməsi – GKZ üzrə kredit zərəri ehtiyatı***

Cəmiyyət AD və DMGƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə GKZ-ni perspektiv əsasda ölçür. Cəmiyyət GKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır. GKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri GKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatında göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, GKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır.

DMGƏD-də borc alətləri üçün GKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

***Dəyərsizləşmədə "Sadələşdirilmiş yanaşma"***

9 saylı MHBS Cəmiyyətə ticarət debitor borcları, müqavilə aktivləri və lizinq debitor borcları üçün sadələşdirilmiş yanaşma tətbiq etməyə imkan verir. Sadələşdirilmiş yanaşma, Cəmiyyətə kredit riskinin əhəmiyyətli dərəcədə artımını müəyyənləşdirmədən bütün bu aktivlər üzrə ömürlük gözlənilən zərərləri tanımağa imkan verir. Müəyyən uçot siyasəti seçimlərinə tətbiq olunur:

- Ticarət debitor borcları və əhəmiyyətli bir maliyyələşdirmə komponenti olmayan müqavilə aktivləri üçün ömürlük gözlənilən zərər ehtiyatını tanımaq tələb olunur (yəni müəssisə həmişə sadələşdirilmiş yanaşma tətbiq etməlidir);

- Digər ticarət debitor borcları, digər müqavilə aktivləri, əməliyyat lizinqi debitor borcları və maliyyə lizinqi debitor borcları üçün bu, hər bir aktiv növü üçün ayrıca tətbiq oluna bilən uçot siyasəti seçimidir (lakin müəyyən bir növün bütün aktivlərinə aiddir).

***Maliyyə vəziyyəti haqqında hesabatda GKZ üzrə ehtiyatın təqdim edilməsi***

GKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Cəmiyyət, kredit öhdəliyi komponenti üzrə GKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Cəmiyyət hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

***Maliyyə aktivlərinin silinməsi***

Cəmiyyət bütün praktiki bərpaetmə səylərini tükətdikdə və bərpa etmək üçün ağlabatan bir gözləntinin olmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tamamilə və ya qismən silinir. Silinmələr tanınmanın dayandırılmasını əks etdirir. Cəmiyyət, müqaviləyə əsasən ödənilən məbləğləri bərpa etmək istədiyi halda, hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivlərini silə bilər; lakin bərpa üçün ağlabatan gözlənti yoxdur.

**Əsas vəsaitlər**

Əsas vəsaitlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır.

Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əsas vəsaitlərə daxildir.

*Köhnəlmə*

Bina, qurğu və avadanlıqlar üçün köhnəlmə onların gözlənilən faydalı istifadə müddəti üzrə azalan qalıq metodu ilə hesablanır. Gözlənilən faydalı istifadə müddəti, qalıq dəyəri və köhnəlmə metodu hər hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir və mümkün dəyişikliklər perspektiv əsasla uçota alınır.

Cəmiyyətin əsas vəsaitlərinin təxmin edilən faydalı istifadə müddəti üzrə köhnəlmə dərəcləri aşağıda göstərilir:

| | |
|---|---|
| Əmlak | 7% |
| Maşınlar və avadanlıqlar | 10% - 25% |
| Kompüter və ofis avadanlığı | 25% |
| Nəqliyyat vasitələri | 25% |
| Digər avadanlıqlar | 20% |
| Qeyri-maddi aktivlər | Faydalı istismar müddəti ərzində |

Torpaq və tikintisi tamamlanmamış aktivlər üzrə köhnəlmə hesablanmır.

Əsas vəsaitlərin faydalı istifadə müddəti hər il nəzərdən keçirilir və lazım olduqda onların faydalı istifadə müddətindəki dəyişikliklər perspektiv qaydada uçota alınır.

Aktiv artıq köhnəlmiş və istismar müddətinin sonunda olacağı vəziyyətdə olarsa, Cəmiyyətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmini məbləğ, satış üzrə təxmini xərclər çıxılmaqla, aktivin qalıq dəyərinə bərabər olur. Əgər Cəmiyyət aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə etməyi nəzərdə tutursa və ləğv etmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir maliyyə vəziyyəti haqqında hesabatın tarixində nəzərdən keçirilir və təshih edilir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Nağd pul vəsaitləri və onların ekvivalentlərinə ilkin ödəniş müddəti üç aydan çox olmayan bankdakı əmanətlər və digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyəri ilə uçota alınır. Məhdud qalıqlar pul vəsaitlərinin hərəkəti haqqında hesabat üçün pul vəsaitləri və onların ekvivalentlərindən silinir. Ödəniş tarixindən sonra ən azı on iki ay ərzində öhdəliyi yerinə yetirmək üçün dəyişdirilə və istifadə edilə bilməyən qalıqlar digər uzunmüddətli aktivlərə daxil edilir.

**Mal-material ehtiyatları**

Mal və material ehtiyatları, ən aşağı maya dəyəri və xalis satış dəyəri ilə ifadə edilir. Mal və material ehtiyatlarının qiyməti, ehtiyatların ilkin qiymətləndirilmə və satılma ardıcıllığı üsulu ilə (İQSA) təyin edilir və birbaşa olaraq satınalma, hasilat, nəqliyyat və emal xərclərini əhatə edir.

Mal və material ehtiyatlarının qalıq dəyəri, dəyərinin az olmasından asılı olaraq ya bu mal və material ehtiyatlarının maya dəyərinə əsasən, ya da xalis amortizasiya dəyərinə əsasən qiymətləndirilir. Xalis realizasiya dəyəri ehtiyatların dəyərindən aşağı olduğu təqdirdə, qalıq dəyər xalis satış qiymətinə qədər salınır və artıq məbləğ dərhal məcmu gəlirlər hesabatına daxil edilir.

**Avans ödənişləri**

Avans ödənişləri dəyərsizləşmə zərərləri üzrə ehtiyatların çıxılması ilə tanınır. Avans ödənişi uzunmüddətli kimi o zaman təsnifatlaşdırılır ki, avans ödənişi ilə əlaqədar olan malların və ya xidmətlərin əldə edilməsi bir ildən sonra gözlənilir və ya avans ödənişi ilkin tanınmadan sonra uzunmüddətli aktiv kimi tanınacaq aktivə aiddir.

Cəmiyyətin aktiv üzərində nəzarət əldə etdiyi və bu aktivlə əlaqədar gələcəkdə iqtisadi mənfəətin Cəmiyyətə axını ehtimal edildiyi hallarda aktivin əldə edilməsi üçün edilən avans ödənişləri aktivin qalıq dəyərinə ötürülür. Digər avans ödənişləri mallar və ya xidmətlər alındıqdan sonra mənfəət və zərər hesablarında əks etdirilir.

**Mənfəət vergisi**

Mənfəət vergisi xərci hazırda ödənilməli və təxirə salınmış vergi xərclərinin vergisini göstərir.

Hal-hazırda ödəniləcək vergi, il üçün vergi tutulan gəlirə əsaslanır. Vergi tutulan gəlir məcmu mənfəət haqqında hesabatda göstərilən xalis mənfəətdən fərqlənir, çünki digər illərdə vergi tutulan və ya tutulan gəlir və ya xərc maddələrini istisna edir və əlavə olaraq heç vaxt vergi tutulmayan və ya çıxılmayan maddələri də istisna edir. Cəmiyyətin cari vergi xərcləri hesabat dövrünün sonunda tətbiq edilmiş və ya qüvvəyə minən vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi, maliyyə hesabatlarında aktiv və öhdəliklərin balans dəyəri ilə vergi tutulan gəlirin hesablanmasında istifadə olunan müvafiq vergi bazası arasındakı fərqə görə ödənilməli və ya geri qaytarılacağı gözlənilən vergidir və balans öhdəliyi metodundan istifadə edilməklə uçota alınır. Təxirə salınmış vergi öhdəlikləri ümumiyyətlə bütün vergi tutulan müvəqqəti fərqlər üçün tanınır və təxirə salınmış vergi aktivləri, tutulan müvəqqəti fərqlərin tətbiq oluna biləcəyi vergi tutulan mənfəətin əldə edilməsi ehtimalı olduğu dərəcədə tanınır. Vergi mənfəətinə və ya uçot mənfəətinə təsir etməyən bir əməliyyatda digər aktiv və öhdəliklərin qudvil və ya ilkin tanınması (müəssisə birləşməsindən başqa) nəticəsində müvəqqəti fərq yaranırsa, bu cür aktiv və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və aktivin tam və ya qismən geri qaytarılması üçün vergi tutulan mənfəətin kifayət olacağı ehtimalı azaldılır.

Təxirə salınmış vergi, öhdəliyin geri qaytarılması və ya aktivin xaric edilməsi müddəti ərzində tətbiq olunacağı gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi birbaşa kapitala hesablanmış və ya hesablanmış maddələrlə əlaqəli olmadıqda, mənfəət və zərər hesabatında hesablanır və ya uçota alınır, bu halda təxirə salınmış vergi də kapitalda uçota alınır.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri, xərclər çıxılmaqla, MHBS-yə uyğun olaraq maliyyə vəziyyəti haqqında hesabatda əks olunur, əgər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivlərini cari gəlir vergisi öhdəliklərinə qarşı çıxarmaq üçün qanuni qüvvəyə minmiş bir hüququ vardır; və

- Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış gəlir vergisi öhdəliyi eyni vergi orqanı tərəfindən eyni vergi tutulan qurumdan tutulan gəlir vergilərinə aiddir.

Mənfəət vergisi Azərbaycan Respublikasında şirkətlərdən 20% dərəcəsi ilə tutulur.

**Əlavə Dəyər Vergisi**

Çıxış və elan edilmiş ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilməlidir. Satışla əlaqəli əlavə dəyər vergisi (a) müştərilərdən debitor borcları alındıqda və ya (b) müştərilərə mal və ya xidmətlər çatdırılma halında vergi orqanlarına ödənilir. Daxil olan ƏDV ümumiyyətlə ƏDV fakturası alındıqda çıxış ƏDV-yə qarşı geri qaytarılır.Vergi orqanları ƏDV-nin xalis əsasda ödənilməsinə imkan verir.

Satış və satınalma ilə əlaqədar ƏDV maliyyə vəziyyəti haqqında ümumi hesabatda tanınır və aktiv və öhdəlik kimi ayrıca açıqlanır. Debitor borclarının dəyərsizləşməsi üçün ehtiyat yaradarkən, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcun tam məbləği üçün tanınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 2008-ci ildə tətbiq edilmişdir. 1 yanvar 2008-ci il tarixindən Vergi Məcəlləsinə edilən dəyişikliklər əsasında ƏDV-nin geri qaytarılma məbləği vergi ödəyicisinin ƏDV depozit hesabına təqdim edilmiş ƏDV hesab-fakturalarına uyğun olaraq həyata keçirilən əməliyyatlar çərçivəsində ödənilmiş vergi məbləği hesab olunur.

Bu moduldan istifadə edərək vergi ödəyicisi ƏDV hesab-fakturalarında göstərilən ƏDV məbləğini başqa vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda, gömrük komitəsinə ödənilməli olan bütün vergi növləri və idxal əməliyyatları üzrə ƏDV üzrə dövlət büdcəsinə vergi öhdəlikləri vergi ödəyiciləri tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər haqqında məlumat Vergilər Nazirliyi tərəfindən Baş Dövlət Xəzinədarlığına ("DXA"), sonra isə Azərbaycan Respublikasının Mərkəzi Bankına ("ARMB") ötürülür. ARMB Baş Xəzinədarlığın verdiyi məlumatlara əsasən, müvafiq yerli xəzinə orqanlarına məbləğlərin dəyişdirilməsini təmin edir. Vergilər Nazirliyi vergi ödəyicisinin şəxsi sənədlərində göstərilən məlumatlarda göstərilən məbləğlərin daxil edilməsini təmin edir. Mövcud sistem Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi Məlumat Sistemi ilə əlaqələndirilir. Eyni zamanda, DXA və ARMB ilə onlayn məlumat mübadiləsi təşkil edildi.

ƏDV depozit hesabının tətbiqi ödənişlərin və ƏDV-nin bərpa olunan məbləğlərinin vaxtında izlənilməsinə imkan verir. Vergi borcu olan vergi ödəyiciləri yalnız bu məbləğləri dövlət büdcəsinə köçürə bilərlər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin sub hesablarına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Vergilər Nazirliyi xüsusi proqram təminatından istifadə edərək depozit hesabı vasitəsilə həyata keçirilən bütün əməliyyatları avtomatik idarə edir.

ƏDV depozit hesabındakı qalıqların istifadəsi məhduddur və yalnız ƏDV və digər tətbiq olunan vergilərlə əlaqəli əməliyyatlar üçün istifadə edilə bilər.

**Torpaq vergisi**

Azərbaycan Respublikasında torpaq mülkiyyətçiləri və istifadəçiləri müxtəlif dərəcələrlə torpaq vergisinə cəlb olunurlar.

Hər 100 kvadratmetr üçün 0,1 AZN ilə 10 AZN arasında dəyişən vergi dərəcəsi torpaq növündən, yəni kənd təsərrüfatı, sənaye, tikinti, rabitə, ticarət və ya yaşayış məqsədləri üçün torpaq sahələrindən asılıdır.

Hesabat dövrü - təqvim ayı. Torpaq sahibi olan və ya istifadə edən hüquqi şəxslər üçün vergi bəyannaməsinin təqdim edilməsi üçün son tarix hər ilin 15 mayıdır, vergi avqustun 15-dən və noyabrın 15-dən gec olmayaraq bərabər hissələrlə ödənilməlidir.

**Əmlak vergisi**

Əmlakın qalıq dəyərindən artıq bir məbləğdə sığortalanması və əmlak vergisi bazar dəyəri ilə hesablandığı hallar istisna olmaqla, rezident hüquqi şəxslər və daimi nümayəndəliyi olan qeyri-rezident hüquqi şəxslər üçün vergi bazası onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Beləliklə, bu cür hüquqi şəxslərə məxsus əsas vəsaitlərin orta illik qalıq dəyəri 1% dərəcəsi ilə əmlak vergisinə tutulur.

Eyni zamanda rezident və qeyri-rezident fiziki şəxslər üçün vergi bazasına binalar və onların hissələri, habelə rezident fiziki şəxslərin su və hava nəqliyyat vasitələri daxildir, burada əmlak vergisi dərəcəsi mülkiyyət növündən asılı olaraq dəyişir.

Hesabat dövrü - təqvim ili. Əsas vəsaitlərə sahib olan hüquqi şəxslər hesabat dövründən sonrakı ilin 31 mart tarixindən gec olmayaraq vergi bəyannaməsi təqdim etməlidirlər. Əmlak vergi ödəyicisi olan hüquqi şəxslər vergiləri avans şəklində (keçən il əmlak vergisinin 20% -i) hər rübün ikinci ayının 15-dək yuxarıda göstərilən müddətdən gec olmayaraq son qalığı ilə ödəyirlər.

